**UOT 81’28**

# XOCAVƏND RAYONUNUN TÜRK-AZƏRBAYCAN MƏNŞƏLİ TOPONİMLƏRİNİN TARİXİ-LİNQVİSTİK TƏHLİLİ

**Nuranə ALLAHVERDİYEVA**[*]

Məqalə redaksiyaya daxil olmuşdur: 19 iyun 2024; çapa qəbul edilmişdir: 23 iyul 2024; online-da çap edilmişdir: 17 sentyabr 2024.

Received: 19th of June, 2024; accepted: 23th of July, 2024; published online: 17th of September, 2024.

**Açar sözlər:** *Xocavənd, türkmənşəli, toponim, etnotoponim, türk tayfaları*

## Giriş

Toponimika elmi etimoloji, tarixi və coğrafi məlumatlara əsaslanaraq yer adlarını tədqiq edir. Toponimlər isə bir şəhər, çay, dağ kimi coğrafi yeri göstərmək, işarələmək, müəyyən etmək üçün istifadə olunan söz və ya söz birləşmələridir. Toponimikada yer adlarının linqvistik təkamülü (etimologiyası) həmin yerin adlandırılmasının əsası (tarixi-coğrafi aspektlər) ilə əlaqədardır. Əksər tədqiqatçı alimlər yaşayış yerlərinin adlarının etimoloji tədqiqi üzərində cəmləşmiş, oronimlərin öyrənilməsinə və onların adlandırılmasının tarixinə əhəmiyyət verməmişdir.

Azərbaycan toponimik sistemində geniş yayılan və milli mənşəli yer adları arealının tarixi qədim zamanlara gedib çıxır. Türk-Azərbaycan mənşəli yer adları özündə digər arealları da birləşdirir. Belə ki, Azərbaycan xalqının formalaşmasında iştirak edən türk tayfalarının rolunu bu məqamda unutmaq olmaz. Yer adlarının tarixi qədimliyi bu ərazilərin qədim olmasını da təsdiq edir.

Xocavənd rayonunun Azərbaycan-türk mənşəli toponimləri və onların müxtəlif qruplarının öyrənilməsi elmi əhəmiyyəti ilə yanaşı, ictimai-siyasi və mənəvi mahiyyəti ilə də diqqəti çəkməkdədir. Toponimlərin mənşəcə türklərə məxsusluğunu aşkarlamaq, yaranma yollarını öyrənmək toponimlərin araşdırılması baxımından da çox aktualdır. Rayonun inzibati-ərazi bölgüsünə daxil olan toponimlər mənşəyinə görə maraq doğurur. Bu adlar türk milli təfəkkürünə uyğun şəkildə yaranmış və Azərbaycan toponimik sisteminin tərkibi kimi inkişaf yolu keçmişdir.

Toponimik tədqiqatlar göstərir ki, azərbaycandilli toponimlərin bir çoxu Azərbaycan və türk dillərinə aid sözlər əsasında yaranmaqla Xocavənd rayonu toponimik sisteminin əsasını təşkil edir. Türkdilli toponimlərin çoxluq təşkil etməsini iki səbəblə əlaqələndirmək olar:

1. Azərbaycanlıların əcdadı hesab edilən alban tayfalarının çoxunun türk olması və bu tayfaların orta əsrlərdə bu ərazilərdə məskunlaşması;
2. Türk etnosların məskunlaşdıqları torpaqlarda toponimlərin yaranmasında sosial-iqtisadi və coğrafi faktorlara təsiri.

Azərbaycanın türkmənşəli toponimiyasında bu ərazilərdə məskunlaşan əhalinin bir xalq kimi təşəkkül tapmasında iştirak etmiş bir çox türk tayfalarının adları coğrafi adlarda indi də qalmaqdadır.

Məqalədə Xocavənd ərazisinin toponimləri tarixi-linqvistik istiqamətdə təhlil edilib

[*] *dissertant, Bakı Avrasiya Universiteti*
e-mail: nurane.ava93@gmail.com
DOİ: https://doi.org/10.30546/25194011.2024.13.4.028

və faktlar əsasında təqdim olunmuşdur.

### 1. Xocavənd rayonunun türk-Azərbaycan mənşəli oykonimləri

Adlar və adların tarixi bəşər tarixi qədər qədimdir. İnsanlar özlərini və ətraflarını başqalarından fərqləndirmək üçün ad qoymağı seçdilər, nə zaman verildiyini təxmin edə bilməyəcəkləri bu adları həmişə sorğu-sual etməyə başladılar. Bu adların verilməsini, mənasını, tarixini daha çox bənzətmə və xalq etimologiyası ilə izah edirdilər. Onomastikanın iki əsas qolundan biri olan toponimika da bu marağın təsiri altındadır. Yaşadığımız coğrafiyanı ən yaxşı şəkildə təyin edə bilmək, məkanlara öz xüsusiyyətlərimizi əlavə etmək üçün istifadə etdiyimiz üsul bu yerlərə bizi – tariximizi, keçmişimizi, coğrafiyamızı, təbiətimizi, mədəniyyətimizi simvolizə edən adlar verməkdir. Bir xalqın dili və onun adlandırma ənənəsi qədim zamanlarda formalaşmışdır.

Toponimlərin nominasiya baxımından araşdırılması göstərir ki, bir qrup coğrafi obyektə ad spesifik xüsusiyyətinə görə verilmişdir. Bu qrupa daxil olan coğrafi adlar ad almasına görə başqa toponimlərdən tamamilə fərqlənir. Əgər digər coğrafi adlar yaxınlığındakı obyektlərin adlarını (kənd, şəhər, qəsəbə, dağ, təpə, çay, göl, dəniz, kanal, arx və s.) əks etdirmələrinə görə ad aldıqları halda, spesifik coğrafi adlar onlardan fərqli olaraq adını heç bir obyektdən almır. Onlara spesifik əlamətlərinə (relyef formasına, yerləşdiyi cəhətlərə, ölçülərinə, süxurlarının rənginə və tərkibinə, sayına, hündür-alçaqlığına, ərazisinin bitkisiz olmasına, baş vermiş hadisəyə və s.) və metaforik cəhətlərinə (bu və ya digər heyvana, quşa, əşyaya, insan və heyvanın bədən üzvlərinə oxşadılmasına, həmçinin relyefinin zahiri görünüşünə görə) ad verilmişdir (10, s. 196).

Azərbaycan toponimiyasında türk-Azərbaycan mənşəli bir sıra toponimlərə rast gəlinir. Həmin coğrafi adlarda əksini tapmış terminləri biz müasir Azərbaycan dilində və onun dialektlərində saxlanmadığına görə şərti olaraq qədim türkmənşəli hesab edirik. Buradan belə nəticəyə gəlmək olur ki, vaxtilə bu sözlər Azərbaycan dilində mövcud olmuş və sonralar tədricən unudulmuşdur. Deməli, toponimlərdə əksini tapmış, daşlaşıb qalmış bu sözlər bir tərəfdən türkdilli toponimlərin qədimliyini göstərirsə, digər tərəfdən isə dilimizin tarixi nöqteyi-nəzərindən qiymətli faktlardır. Lakin nəzərə almaq lazımdır ki, paralelləri başqa türk dillərində qalmaqda olan həmin sözlərin özləri də toponimlərdə Azərbaycan dilinin qrammatik qanunlarına tabe olunmuş şəkildə qalmışdır (10, s. 150).

Onomastik vahidlər dilin tarixinin öyrənilməsi baxımından etibarlı mənbə hesab olunur. V.A.Nikonov yazır ki, onomastikanın vahidləri onu yaradanların dili haqqında bir çox məlumatı özündə birləşdirir. Adların müəyyən yerə aidliyi isə həmin ərazidə yayılmış qədim dili bərpa etmək, yayılma ərazisinin hüdudlarını müəyyənləşdirmək imkanı verir (13, s. 11). Yer adlarının bir çoxu həmin yerlərdə məskunlaşan tayfa və qəbilələr tərəfindən yaradılmışdır. Azərbaycan toponimik sistemində Erkən orta əsrlər dövründə məskən salan türkdilli tayfalar, onların qolları və tirələrinin adları ilə bağlı çoxlu yer adları qalıb. Azərbaycanda məskunlaşan türkdilli tayfalar – bolqar, suvar, avar, xəzər, qıpçaqlar Azərbaycan xalqının formalaşmasında mühüm rol oynamışdır. Buna görə də etnotoponimlərin mənşəyinin tədqiq edilməsi ilə bu tayfaların Azərbaycan xalqının yaranmasında nə dərəcədə rol oynadığı məlum olur, əsl mənbə rolunu oynayır. Tayfa adları əsasında yaranan yer adlarının Xocavənd rayonu ərazisində çox olması bu ərazidəki toponimlərin çox hissəsinin türkmənşəli olduğunu sübut edir. Xocavənd ərazisində belə oykonimlərdən aşağıdakıları göstərmək olar:

Etnotoponim hesab etdiyimiz ***Qaradağlı*** kəndinin adı eyniadlı tayfadan götürülmüşdür. *Qaradağlılar* Cənubi Azərbaycandan köç edərək müxtəlif ərazilərə yayılmış və bu ərazilərdə eyni adla yaşayış məskənləri salmışlar. Onlar Qaradağ mahalında yaşamış, məskunlaşdıqları yerin adı ilə özlərini belə adlandırmışlar (11). Tarixən yer adlarına, tayfa

adlarına nəzər saldıqda, onların etimoloji təhlilini apardıqda qara sözünün *“böyük”* mənasında işlənməsinə də rast gəlirik (1, s. 87).

İki sözün – ***qara*** və ***dağ*** birləşməsindən və *-lı* mənsubiyyət ifadə edən şəkilçidən ibarət oykonim milli mənşəlidir. Güman edirik ki, bu ad Azərbaycan türkcəsində *“böyük dağlıq yer”* mənasında işlənir.

Türk dillərindəki *dağ//tağ//tay//too//tuu* sözləri toponimlərdə geniş işlədilir. Belə toponimlər araşdırılarkən türk dillərinin tarixi-müqayisəli fonetikasına əsaslanmaq lazım gəlir.

Tarixi qaynaqlarda Azərbaycanda Elxanilər dövründən gəlib yurd salan *Sor//Sur* tayfalarının da adı çəkilir. XVI əsrdən bu tayfaların Qarabağ və Şirvan torpaqlarında məskunlaşdıqları qeyd olunur (12, s. 143).

***Sor//Sur*** oykoniminin mənasını bu formada izah etmək olar. Bu söz türkdilli xalqların toponimiyasında coğrafi termin kimi *“aşağı yer”, “ətək” “bataqlıq”* mənalarında işlənir (4, s. 195). Yerləşdiyi coğrafi mövqeyi - dağətəyi ərazidə olduğunu nəzərə alsaq, sözün *“aşağı yer”* mənasında olduğunu qəbul etməliyik. *Sor//Sur* tayfaları ilə əlaqələndirsək, *“sorların kəndi”* kimi izah etməyi məqsədəuyğun hesab edirik.

Xocavənd rayonunun yaşayış məskənlərindən biri olan ***Tuğ*** kəndinin adı qıpçaq türklərinin Tuğ tayfaları ilə bağlıdır. Əski türk dilində bu söz *“bayraq”* mənasında işlənmişdir. Bu bizim hazırda bildiyimiz bayraq deyildi, həmin bayrağı atın quyruğundan hazırlayır, taxtaya vurur və hər iki küncündən ipək bayraq asırdılar. Qədim türklər bu bayraqdan daha çox dini bayramlarda istifadə edirdilər (16).

Türkmənşəli muğanlı etnoniminin əsasında yaranan ***Muğanlı*** toponiminin adı həmin tayfa ilə bağlıdır. Bu insanlar vaxtilə Muğan düzündə yaşadıqlarına görə özlərini həmin düzün adı ilə *muğanlılar* adlandırmışlar (4, s. 119).

Türkdilli xalqların köç edərək müxtəlif ərazilərdə, həmçinin Xocavənd rayonunda məskunlaşması nəticəsində türk-Azərbaycan mənşəli toponimlərin siyahısına rayonun *Dolanlar, Edişə, Edilli, Əmiranlar, Sos* və s. toponimlərini də əlavə etmək mümkündür.

Rayon ərazisində türk-Azərbaycan mənşəli toponimlər dedikdə yalnız etnotoponimlərlə kifayətlənməməliyik. Burada milli mənşəli fitotoponimlər, antrotoponimlər, zootoponimlər də çoxdur. Bunlardan bəzilərinin izahını verməyi münasib hesab edirik.

Belə toponimlərdən diqqəti daha çox cəlb edən ***Ataqut*** oykoniminin izahını verək. ATL-də (I cild) bu toponimin ***ataq*** və ***ut*** leksemlərindən ibarət olması, türk dillərində **ataq//atak** sözünün *“sədd”, “bənd”* mənasında işləndiyi, **ut** komponentinin isə *“qarşı gəlmək”* mənalı *utruş//utrun* feillərinin kökü ilə bağlılığı göstərilir. Hazırda müasir Türkiyə türkcəsində *atak* sözü “hücum”, həmlə” mənalarında işlənməkdədir. Əski uyğur mətnlərində *utruş//utrun* feilləri “dirənmək”, “dayanmaq” mənasında işlənmiş və bu feillərə mətnlərdə *ut* formasında da rast gəlinir (17, s. 612).

Bu toponimin öz adını kəndin yaxınlığındakı Ataqut çayından götürüldüyünü nəzərə alaraq, *“bəndin qarşısını kəsmək”* kimi izah etməyi münasib bilirik.

Mürəkkəb quruluşlu, milli mənşəli ***dərə*** *(çökək)* və ***kənd*** *(yaşayış məntəqəsi)* sözlərindən ibarət ***Dərəkənd*** oykonimi *“dərədə yerləşən kənd”* mənasındadır.

Qarabağ silsiləsinin ətəyində yerləşən ***Arpadüzü*** kəndinin adı mürəkkəb quruluşa malikdir. Öz adını ərazidəki *“arpa əkilən düz”* mənalı eyniadlı sahədən almışdır. Bitki adının verilməsi ilə yaranan adlarda bu adın verilməsi o bölgədə həmin bitkinin çox olması ilə əlaqəlidir. Oykonimi təşkil edən sözlərin hər ikisi milli mənşəlidir. Mahmud Kaşğarinin “Divani lüğət-it-türk” əsərində *arpa* və *düz* sözlərinin mənaları belə izah edilmişdir. Divanda arpa sözü *“dənli bitki”* mənasında izah edilmişdir. Verilmiş nümunədə bunu aydın görə bilərik: *Arpasız at aşumas, arkasız alp çeriğ sıyumas* (14, s. 123). Elə həmin müəllifin tədqiqatında düz sözü *tüz//düz* formasında *“düz yer”* mənası ilə şərh edilmişdir (14, s. 325).

Ərazisi xırmanlıq olan, vaxtilə erməni ailələrinin Maçkalaşen - "cütçü, əkinçinin kəndi" (3, s. 127) adlandırdıqları ***Cütçü*** oykonimi *"torpağı becərən"* mənasındadır və bu ad peşə ilə əlaqədar kəndə verilmişdir. *"Cüt"* kök morfemindən və *-çü* şəkilçi morfemindən ibarət bu söz milli mənşəli olub əkinçiliklə bağlı olaraq meydana çıxmışdır.

**2. Xocavənd rayonunun türk-Azərbaycan mənşəli oronimləri**

Tədqiqatda müzakirə olunan oronimlər anlayışı yer adlarının bir növüdür və hər cür yüksəklik, çökəklik, silsilələr və qeyri-bərabərliklərin xüsusi adına – dağ, təpə, uçurum, dərə və s. aid edilir. Bu kontekstdə Xocavənd ərazisindəki oronimlərin mənşəyi tədqiq edilir.

Xocavənd rayonunun oronimik leksikasının çox hissəsini Azərbaycan və türk dillərinə aid adlar təşkil edir. Türk (Azərbaycan) arealına daxil olan bu oronimlərin komponentləri vasitəsilə yaranmış coğrafi adlar Azərbaycan ərazisində geniş yayılmış onomastik vahidlərdir.

Xocavənd rayonunun Qaraçuq kəndi yaxınlığında ***Böyük Oxlu*** və ***Kiçik Oxlu*** adlı dağlar var. Bu oronimlər üç komponentdən – *böyük, oxlu, dağ; kiçik, oxlu, dağ* ibarətdir. Oronimi təşkil edən sözlərin hər biri milli mənşəlidir. Oronimin tərkibində işlənən *böyük* və *kiçik* sözləri, fikrimizcə, fərqləndirici xüsusiyyətinə görə bu dağlara verilmişdir. Bilirik ki, oğuz tayfalarının hər birinin öz fərqləndirici damğası var idi. Bu dağlarda da qayaların üzərində ox işarələri təsvir edilmişdir. Güman edirik ki, məhz bu ox işarələrinə görə bu dağlar *Oxlu* adlandırılmışdır. Oronimlərin bir çoxunda rast gələnən milli mənşəli *dağ* sözü rayon ərazisinin toponimik sisteminin formalaşmasında əhəmiyyətli rol oynayır.

Yerlərin adlandırılması zamanı tətbiq olunan təcrübələrdən biri də rəng simvolikasından səmərəli və geniş şəkildə istifadə olunmasıdır. Ən çox istifadə olunan rənglər – ağ, qara, göy, qırmızı və sarı kimi görünür.

***Qaraqaya dağı*** rayon mərkəzindən bir qədər aralıda qeydə alınan coğrafi adlardan biridir və oronim *qara, qaya, dağ* sözlərindən ibarətdir. Dağ sözünün tərkibindəki *–ı* şəkilçisi isə mənsubluğu bildirir. Hər üçü milli mənşəli olan bu sözlər vasitəsilə yaranan oronim sintaktik yolla yaranmışdır və qara sözü "rəng" mənasında işlənmişdir. Cavad Heyətin *"Türk dillərində rənglərin yeri"* adlı əsərində qara rəngi uğursuzluq, yas əlaməti bildirməklə yanaşı, böyüklük, rəng mənasında işləndiyi də vurğulanmışdır (8, s. 118).

Türk (Azərbaycan) sözlərinin – *ər (ar)* və *günəş* birləşməsi ilə yaranan ***Ərgünəş*** (Argünəş) dağının adı belə izah edilir: yaxınlıqdakı dağlardan hündür olmasına və günəş şüası ilk dəfə həmin dağın zirvəsinə düşməsinə görə dağ belə adlandırılmışdır. Yakut dilində **"ar"** sözü *"qərb", "dağın kölgə düşən hissəsi", "quzey"* mənasını ifadə edir (3, s. 46). **"Günəş"** sözü isə milli mənşəli coğrafi termin olub oronimin əmələ gəlməsində iştirak edir.

Tədqiqat apardığımız bölgədə tərkibində milli mənşəli *arpa* və *gədik* sözləri olan bir oronim var – ***Arpagədik.*** "Arpa" yazlıq taxıl bitkisidir. Fikrimizcə, bu ərazilərdə insanlar taxıl bitkilərinin yetişdirilməsi ilə məşğul olduqlarına görə oronim belə adlandırılmışdır. "Gədik" sözü isə *"iki dağ zirvəsi və ya yüksəklik arasındakı alçaq sahə, çətin keçilən dar cığır"* mənalı milli mənşəli coğrafi termindir (6, s. 89).

Rayonun ərazisində Tuğ kəndində olan orfoqrafik obyektlərdən ***Atayurd dərəsi*** oronimi *ata, yurd, dərə* milli mənşəli sözlərindən və *-si* mənsubiyyəti ifadə edən şəkilçidən ibarətdir. **"Dərə"** coğrafi termini mənfi relyef mənalıdır. Oronimiyamızda relyefin çökək forması dərə sözü ilə ifadə olunur. **"Ata"** sözü oronimin tərkibində dədə-babaların, doğmaların, əcdadların yurd yeri mənasında işlənmiş, bu səbəbdən də oronim *"ata yurdu olan dərə"* mənasını ifadə etməkdədir.

Xocavənd rayonunda qeydə alınan milli mənşəli oronimlərdən biri də ***Arxac dərəsi*** adlanır. Bu coğrafi adın komponentləri *arxac, dərə* sözləri və *-si* şəkilçisidir. **"Arxac"**

sözü türk dillərində *"ahraç"* şəklində işlənmiş və mənası *"yaz fəslində gündüzlər qoyun və qaramalın dincəlməsi üçün düzəldilən yer"*dir (15, s. 53). Bu söz hazırda dilimizdə eyni mənada dialektlərdə işlənir. Dərə coğrafi termini milli mənşəli olub mənfi relyef mənalıdır.

Yuxarıda qeyd etdiyimiz faktlar bir daha sübut edir ki, Azərbaycan toponimiyasının yaranmasında, formalaşmasında çoxlu türkmənşəli sözlər və terminlər iştirak etmişdir. Hətta bəzi toponimlərin tərkibində qədim türkmənşəli terminlərin daşlaşıb qalması sübut edir ki, ərazimizdə hələ eramızdan çox-çox əvvəl türk xalqları məskən salmışlar.

Ermənistan təkcə Azərbaycanın ərazi bütövlüyünə deyil, həm də tarixinə, toponimlərinə qarşı da işğalçı siyasətlərini əsrlər boyu yürütmüşlər. Buna görə də türk-Azərbaycan mənşəli yer adlarının doğru şəkildə dünyaya çatdırılması üçün daha böyük cəsarətlə mübarizə aparılmalı, KİV-də Ermənistanın təcavüzünə məruz qalan Azərbaycan toponimlərinin dəyişdirilməsi ilə əlaqəli yayılmış yalan məlumatlar haqqında lazımi qurumlara vaxtında məlumat verilməli və bu yalan informasiyaların sıradan çıxarılmasına qarşı davamlı tədbirlər görülməlidir.

**Nəticə**

Xocavənd rayonunun Azərbaycan-türk mənşəli toponimlərinin tədqiq edilməsi aşağıdakı elmi nəticələri söyləməyə imkan verir.

a) Xocavənd bölgəsinin milli mənşəli toponimlərinin öyrənilməsi sübut edir ki, bu ərazilərin ilk sakinləri türklər olmuşdur. Digər etnoslar bu əraziyə ictimai-tarixi hadisələr səbəbi ilə gəlmişdir;

b) Ərazinin toponimləri ilk dəfə tarixi-linqvistik tədqiqata cəlb olunmuş, sistemli şəkildə tədqiq olunmuşdur;

c) Ərazidə türkmənşəli toponimlərin təhlili sübut edir ki, bu ərazidə ümumtürk və Azərbaycan mənşəli etnotoponimlər müəyyən bir lay təşkil edir;

d) Türkmənşəli toponimlərin əksəriyyəti etnotoponimdir və Azərbaycan xalqının yaranmasında iştirak edən tayfaların adları ilə bağlıdır;

e) Bu linqvistik təhlil göstərdi ki, onomastikanın bölmələri arasında konversiya mümkündür. Antroponimlər etnonimlərə, etnonimlər də toponimlərə çevrilə bilir;

f) Xocavəndin coğrafi adlarının tədqiqi göstərdi ki, bu toponimlər qədim tarixə malikdir və Azərbaycan xalqının dili və mənşəyindən xəbər verir. Azərbaycan xalqının əsas və birbaşa mənbəyi sayılan M.Kalankatuklunun "Alban tarixi" əsərində əks olunan bir çox onomastik vahidlər Xocavənd toponimiyasında qalmaqdadır;

g) Toponimlərin (oykonim və oronimlər) yaranmasında iştirak edən - *kənd, oba, tuğ, düz, güney, quzey, qala, dərə, qaya, qışlaq, dağ, yoxuş, yaylaq, qışlaq, pəyə, yer, yataq, qaya, təpə, yurd, tala* sözləri Azərbaycan-türk mənşəlidir və müasir dilimizdə də işlənməkdədir;

h) Xocavənd rayonunun türkmənşəli toponimlərini yaranma yollarına görə aşağıdakı formada qruplaşdıra bilərik:

1. Leksik üsulla: *Sor, Tuğ, Ataqut*
2. Morfoloji üsulla: *Muğanlı, Cütçü*
3. Sintaktik üsulla: *Qaradağlı, Dərəkənd, Arpadüzü, Böyük Oxlu dağı, Arxac dərəsi.*

Xocavənd rayonunun toponimlərinin türk-Azərbaycan mənşəli olmasının tədqiqata cəlb edilməsi, tarixi-linqvistik istiqamətdə öyrənilməsi daşnak ermənilərin planında olan türklərə aid torpaqları ələ keçirmək, onları öz yurdlarından qovmaq, toponimlərimizin adlarının erməniləşdirilməsi kimi məkrli siyasətinə qarşı atılan ən vacib addımdır.

## ƏDƏBİYYAT

1. Axundov A. Torpağın köksündə tarixin izləri. Bakı: Gənclik, 1983, 134 s.
2. Azərbaycanın tarixi abidələri və toponimləri. Biblioqrafiya. Bakı: Zərdabi-Nəşr, 2016, 646 s.
3. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. I c., Bakı: Şərq-Qərb, 2007, 427 s.
4. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. II c., Bakı: Şərq-Qərb, 2007, 304 s.
5. Budaqov B. Türk uluslarının yer yaddaşı. Bakı: Elm, 1994, 272 s.
6. Coğrafiya terminləri lüğəti. Bakı: Altun Kitab, 2016, 223 s.
7. Əhmədov B. Etimologiya lüğəti. Araşdırmalar, mülahizələr. Bakı: Altun Kitab, 2015, 287 s.
8. Heyət C. Türk dillərində rənglərin yeri. Bakı: Təhsil, 2011, 354 s.
9. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. I c., Bakı: Imak, 2019, 288 s.
10. Məmmədov N. Toponimika. Bakı: Bakı Universiteti, 2007, 407 s.
11. Savalan Ş. Qaradağ mahalının tayfaları: tarixdə və günümüzdə. 21 fevral 2017. (https://strateq.az/arashdirma/144640/qaradag-mahalinin-tayfalari.html).
12. Агаев Г. Данные этнотопонимии о расселении тюркоязычных племён в Азербайджане XI–XV вв. // Этническая ономастика. Москва: Наука, 1984, 149 с.
13. Никонов В. Введение в топонимику. Москва: Наука, 1965, 179 с.
14. Atalay B. Divanü Lüğat-it-Türk Tercümesi. Ankara: Türk Tarih Kurumu, 1985, 530 s.
15. Çeçen E. Derleme Sözlüğü'ndeki Mekan Adları // Belleten dergisi, 2020, 203 s.
16. User H. Eski Türk Çağında Hayvan Tözlerinden Devlet Sembollerine // Belleten dergisi, 2007, Cilt 71, №262, s. 843-855.
17. Yavuz D. Uygurca Prens Kalyanamkara Papamkara Hikayesi, Metin (Çeviri Yazı Ve Aktarım), Dil İncelemeleri (Cümle Bilgisi ve Sözcük Yapımı). İstanbul: DergiPark, 2011, 757 s.

***Резюме***

***Нурана Аллахвердиева***

***Историко-лингвистический анализ топонимов тюрко-Азербайджанского происхождения Ходжавендского района***

Большинство топонимов Ходжавендского района, одного из древнейших поселений Азербайджана, имеют тюрко-азербайджанское происхождение. Топонимы Сор, Эдилли, Эдиша, Доланар, Амиранлар, Гарадаглы в этом районе являются топонимами, напрямую связанными с древними тюрками. Топонимы турецко-Азербайджанского происхождения на территории Ходжавендского района доказывают принадлежность этих территорий государству Азербайджан. Следует также отметить, что ряд топонимов тюркского происхождения подверглись фонетическим законам Азербайджанского языка и их местные формы претерпели фонетические изменения. В турецких языках одно слово часто имеет разное прямое и переносное значение. Известно также, что эти слова в разные периоды имели разное значение. Поэтому топонимы, изучаемые в статье, тщательно исследованы и представлены во всех источниках.

К сожалению, оккупация наших земель армянами в XX веке, преступления этнической чистки и геноцида, совершенные против нашего народа, не ускользнули от наших топонимов. Топонимы туркменского происхождения Ходжавендского района стали памятью истории и подверглись моральному геноциду. Названия населенных пунктов, принадлежавших азербайджанцам, и других географических объектов региона были массово изменены и арменизированы. Уродливые цели врага ясны: стереть из памяти древние названия Азербайджана, доказать, что эти места якобы принадлежат им издревле. Хотя все топонимы на картах начала XX века были на Азербайджанском турецком языке, начиная с 1930-х годов они изменялись и арменизировались в несколько этапов. Армяне, умеющие фальсифицировать историю, почти 200 лет захватили земли, принадлежавшие туркам, и изменили тысячи топонимов турецкого происхождения. также подделали свои имена. Согласно решению Милли Меджлиса Азербайджанской Республики от 29 декабря 1992 года № 428 «О восстановлении и уточнении исторических названий некоторых населенных пунктов Азербайджанской Республики», топонимы Ходжавендского района, которые были подвергшиеся армянской агрессии, были заменены нашими национальными именамибыло сделано.

**Ключевые слова:** *Ходжавенд, тюркского происхождения, топоним, этнотопоним, тюркские племена*

***Summary***

***Nurana Allahverdiyeva***

***Historical-Linguistic Analysis of Toponyms of Turkish-Azerbaijani Origin of Khojavand Region***

Most of the toponyms of Khojavend region, one of the oldest settlements in Azerbaijan, are of Turkish-Azerbaijani origin. Sor, Edilli, Edisha, Dolanlar, Amiranlar, Garadaghlı place names in the area are place names directly related to ancient Turks. Toponyms of Turkish-Azerbaijani origin in the territory of Khojavand region prove that these areas belong to the state of Azerbaijan. It should also be noted that a number of toponyms of Turkish origin have been subjected to the phonetic laws of the Azerbaijani language and their local forms have undergone phonetic changes. In Turkish languages, one word often has different literal and figurative meanings. It is also known that these words have different meanings in different periods. Therefore, the place names studied in the article have been carefully researched and presented in all sources.

Unfortunately, the occupation of our lands by the Armenians in the 20th century, the crimes of ethnic cleansing and genocide committed against our people did not escape our toponyms. Toponyms of Turkmen origin of Khojavand region have become the memory of history and have been subjected to moral genocide. The names of residential areas belonging to Azerbaijanis and other geographical objects of the region were massively changed and Armenianized. The enemy's ugly goals are clear: to erase the ancient names of Azerbaijan from memory, to prove that these places supposedly belong to them since ancient times. While all the place names in the maps belonging to the beginning of the twentieth century were in Azerbaijani Turkish, they were changed and Armenianized in several stages starting from the 1930s. Armenians, who are good at falsifying history, have seized the lands belonging to the Turks for nearly 200 years and changed thousands of toponyms of Turkish origin also forged their names. According to the decision No. 428 of the Milli Majlis of the Republic of Azerbaijan dated December 29, 1992 "On the restoration and clarification of the historical names of some settlements of the Republic of Azerbaijan", the toponyms of the Khojavand region, which were subjected to Armenian aggression, were replaced with our national nameshas been done.

**Key words:** *Khojavand, of Turkish origin, toponym, ethnotoponym, Turkish tribes*

Şöbə redaktoru fil.ü.f.d., prof. Tahirzadə Ədalət Şərif oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.